

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 17 dekabr 2022-ci il №97 (2708) https://mod.gov.az Qiyməti 30 qəpik


## Azərbaycan Prezidenti İlham Əliyevin Türkmənistana səfəri

*Dekabrın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Respublikası, Türkiyə Respublikası və Türkmənistan Dövlət Başçılarının Birinci Üçtərəfli Zirvə Görüşündə iştirak etmək üçün Türkmənbaşı şəhərinə səfər edib.*

Türkmənbaşı şəhərinin beynəlxalq aeroportunda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı Türkmənistan Nazirlər Kabineti sədrinin müavini, xarici işlər naziri Rəşid Meredov və digər rəsmi şəxslər qarşılayıblar.

* * *

Dekabrın 14-də Türkmənbaşı şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkmənistan Parlamenti Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədov ilə görüşü olub.

Azərbaycan Prezidenti İlham Əliyevi salamlayan **Qurbanqulu Berdiməhəmmədov** deyib:

- Hörmətli qardaşım İlham Heydər oğlu, Sizi qonaqpərvər Türkmənistanda, xüsusən böyük Xəzərin sahilində salamlamağa çox şadam. Bu gün dost, qardaş ölkələr - Türkmənistan, Azərbaycan və Türkiyə arasında ilk dəfə Zirvə Görüşü keçirilir. Hesab edirəm ki, bu Zirvə Görüşü ölkələrimiz arasında münasibətlərin inkişafında mühüm rol oynayacaq və səmərəsini verəcək.

Bizim ölkəmiz Azərbaycan və Türkiyə ilə qardaşlıq münasibətlərinə xüsusi diqqət yetirir. İlk dəfə keçirilən bu üçtərəfli Zirvə Görüşü, fikrimcə, ölkələrimiz arasında geosiyasi və geoiqtisadi münasibətlər baxımından əhəmiyyətli olacaq. Dövlətlərimiz arasında enerji ehtiyatları tədarükünün şaxələndirilməsi, tranzit-nəqliyyat əlaqələrinin möhkəmləndirilməsi ilə bağlı bir sıra iqtisadi məsələlər var. Humanitar istiqamətə gəldikdə isə dövlətlərimiz arasında ortaq cəhətlər çoxdur - dil, dini etiqad, mədəniyyət və bir sıra başqa məsələlər. Qardaşım İlham Heydər oğlu, mən ölkələrimiz arasında parlamentlərarası əlaqələri də qeyd etmək istəyirəm.



Prezident **İlham Əliyev** deyib:

- Sağ olun, hörmətli Qurbanqulu Məlikquliyeviç. Yenidən Sizinlə görüşməyimə çox şadam. Mən artıq ikinci dəfədir ki, bu il qardaş Türkmənistana səfər edirəm və Sizinlə görüşmək hər zaman çox xoşdur. Biz Sizinlə uzun illər Türkmənistan-Azərbaycan əlaqələrinin inkişafı istiqamətində önəmli addımlar atmışıq və bu gün iki qardaş ölkə öz əlaqələrini yeni səviyyəyə qaldırır. Mən çox şadam ki, bütün sahələrdə qardaşlıq, dostluq əlaqələri özünü göstərir. Biz həm siyasi sahədə strateji tərəfdaşıq, həm iqtisadi sahədə son vaxtlar böyük uğurlara imza atmışıq, ticarət dövriyyəsi bir neçə dəfə artıb. Siz də qeyd etdiyiniz kimi, nəqliyyat, tranzit sahəsində də böyük irəliləyiş var.

Əsas odur ki, xalqlarımız qardaş xalqlardır və bu gün müstəqil Türkmənistan və müstəqil Azərbaycan öz münasibətlərini bu qardaşlıq əsasında qurur. Bu, həm ölkələrimiz, eyni zamanda, bölgə üçün çox önəmlidir və bu gün üç qardaş ölkə Türkmənistanda, bu gözəl Avazada görüşür. Hesab edirəm ki, bu da əcdadlarımızın ruhunu şad edən bir hadisədir. Çünki bu, təbiidir, belə də olmalıdır, qardaş xalqlar bir yerdə olmalıdırlar.

Fürsətdən istifadə edərək burada gördüklərimlə bağlı fikrimi bölüşmək istərdim. Burada qurduğunuz çox gözəl şərait bizi sevindirir. Avaza, doğrudan da, beynəlxalq turizm mərkəzinə çevrilir, həm səliqə-sahman, həm gözəllik, həm də yaşıllıq. Xəzər dənizinin sahillərində belə möhtəşəm mərkəzin yaradılması şəxsən Sizin böyük nailiyyətinizdir. Bu münasibətlə Sizi və qardaş türkmən xalqını təbrik edirəm. Dəvətə görə bir daha təşəkkür edirəm.

* * *

Dekabrın 14-də Türkmənbaşı şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov ilə görüşü olub.

Sərdar Berdiməhəmmədov dövlətimizin başçısı ilə görüşündən dərin məmnunluq hissi keçirdiyini bildirərək, dəvəti qəbul etdiyinə və Azərbaycan, Türkiyə və Türkmənistan Dövlət Başçılarının Birinci Üçtərəfli Zirvə Görüşündə iştirakına görə Prezident İlham Əliyevə minnətdarlığını ifadə edib. Hazırkı dövrdə üçtərəfli əməkdaşlığın xüsusi əhəmiyyət daşıdığını deyən Sərdar Berdiməhəmmədov Türkmənistan tərəfinin bu Zirvə Görüşünə böyük önəm verdiyini vurğulayıb.

Prezident İlham Əliyev qardaş Türkmənistana yenidən səfərindən məmnunluğunu ifadə edib və bu Zirvə Görüşünün keçirilməsi təşəbbüsünə görə Prezident Sərdar Berdiməhəmmədova minnətdarlığını bildirib. Üç xalqın tarix və dil baxımından ümumi köklərə malik olduğunu deyən dövlətimizin başçısı əməkdaşlığımızın genişləndirilməsi üçün yaxşı imkanların mövcudluğunu vurğulayıb. Prezident İlham Əliyev bu Zirvə Görüşünün regional əməkdaşlığa, nəqliyyat, logistika, ticarət sahələrində əlaqələrin genişlənməsinə töhfə verəcəyinə əminliyini ifadə edib. Eyni zamanda, bu görüşün ikitərəfli əlaqələrin müzakirəsi üçün də yaxşı imkan yaratdığını bildirib.

Görüşdə əməkdaşlığın perspektivləri barədə fikir mübadiləsi aparılıb.

* * *

Dekabrın 14-də Türkmənbaşı şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın və Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovun məhdud tərkibdə görüşü keçirilib.

Dövlət başçıları birgə foto çəkdiriblər.

Görüşdə ölkələrimiz arasında əməkdaşlığın daha da inkişaf etdirilməsi məsələləri müzakirə olunub.

* * *

Dekabrın 14-də Türkmənbaşı şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın və Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədovun geniş tərkibdə görüşü olub.

Görüşü giriş sözü ilə Türkmənistan Prezidenti Sərdar Berdiməhəmmədov açıb və çıxış edib.

Sonra dövlətimizin başçısı çıxış edib.

**Prezident İlham Əliyevin çıxışı**

- Hörmətli Türkmənistan Prezidenti Sərdar Qurbanquliyeviç Berdiməhəmmədov.

Hörmətli Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan.

Əziz dostlar.

Bu il ikinci dəfə qardaş Türkmənistana səfər edirəm və yenidən burada olmaqdan çox məmnunam. Üçtərəfli Zirvə Görüşünün yüksək səviyyədə təşkilinə və qonaqpərvərliyə görə Prezident Sərdar Berdiməhəmmədova təşəkkürümü bildirirəm.

Türkmənistanın sabit və dinamik inkişaf yolu ilə irəliləməsinin şahidi olmaq, onun nailiyyətlərini görmək bizi sevindirir.

Azərbaycan, Türkiyə və Türkmənistan bir-biri ilə etnik, dini-mədəni köklər və ortaq mənəvi dəyərlər ilə sıx bağlıdır. Biz haqlı olaraq xalqlarımızın zəngin tarixi-mədəni irsi və bəşər sivilizasiyasına verdiyi böyük töhfələri ilə qürur duyuruq.

Azərbaycanın həm Türkiyə, həm də Türkmənistanla siyasi əlaqələri yüksək səviyyədədir. Türkiyə ilə keçən il imzaladığımız Şuşa Bəyannaməsi münasibətlərimizi strateji müttəfiqlik səviyyəsinə çatdırmışdır. 2017-ci ildə Azərbaycan ilə Türkmənistan arasında strateji tərəfdaşlıq haqqında Bəyannamə imzalanmışdır.

Ölkələrimiz beynəlxalq təşkilatlar, o cümlədən BMT, İslam Əməkdaşlıq Təşkilatı, Türk Dövlətləri Təşkilatı, ATƏT və digər təsisatlar çərçivəsində bir-birinə qarşılıqlı dəstək göstərir və əməkdaşlıq edir.

Tarixi bağlar üzərində qurulmuş münasibətlərimiz ölkələrimiz arasında iqtisadiyyat, ticarət, nəqliyyat-logistika və digər sahələrdə əməkdaşlığın inkişafı üçün imkanlar yaradır.

2022-ci ilin yanvar-oktyabr aylarında Azərbaycanın Türkiyə ilə ticarət dövriyyəsi 45 faiz artaraq 5 milyard dollara çatmışdır.

Azərbaycandan Türkiyə iqtisadiyyatına 20 milyard dollara yaxın, Türkiyədən Azərbaycan iqtisadiyyatına isə 14 milyard dollara yaxın sərmayə yatırılmışdır.

Bu il Türkmənistan ilə ticarət dövriyyəsi 5 dəfə artmışdır. Bu, rekord göstəricidir.

**(Ardı 2-ci səhifədə)**

# Azərbaycan Prezidenti İlham Əliyevin Türkmənistana səfəri



(Əvvəli 1-ci səhifədə)

Azərbaycan, Türkiyə və Türkmənistan nəqliyyat-logistika sahəsində böyük uğurlara imza atmışdır. Ölkələrimiz tərəfindən bir çox layihələr icra edilmişdir ki, bunlar da öz növbəsində nəqliyyat bağlantıları sahəsində əməkdaşlıq üçün yeni imkanlar açır.

Hər üç ölkədə bu sahəyə qoyulan sərmayələr yeni, müasir infrastrukturun yaradılmasına xidmət etmişdir.

Azərbaycan Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin fəal iştirakçısıdır və öz ərazisində dəmir yolu, avtomobil nəqliyyatı və hava nəqliyyatı ilə bağlı olan bütün əsas layihələri icra etmişdir. Bunun nəticəsində Azərbaycan önəmli tranzit ölkəsinə çevrilmişdir.

2022-ci ilin ilk 10 ayında Azərbaycan ərazisindən keçən ümumi tranzit daşımalarının həcmi ötən ilin müvafiq dövrü ilə müqayisədə 80 faizdən çox artmışdır.

Hazırda Zəngəzur dəhlizinin açılması ilə fəal məşğuluq. Zəngəzur dəhlizinin Azərbaycan ərazisindən keçən hissəsində aparılan işlərin dəmir yolu xətti üzrə 40 faizi, avtomobil yolu üzrə 70 faizi icra olunub. Bütün işlər 2024-cü ildə tamamlanacaq və nəticədə yeni nəqliyyat dəhlizi yaranacaq.

Bakı Beynəlxalq Dəniz Ticarət Limanı ildə 15 milyon ton yükaşırma qabiliyyətinə malikdir və bu həcmin 25 milyon tona çatdırılması üçün vəsaitin ayrılması nəzərdə tutulur.

Keçən il Xəzər dənizi sahilində yerləşən Ələt Azad İqtisadi Zonasının təməli qoyuldu və orada artıq ilk rezidentlər yerləşir. Türkiyədən və Türkmənistandan olan şirkətləri bu Zonanın imkanlarından faydalanmağa dəvət edirik.

2017-ci ildə əziz qardaşım Rəcəb Tayyib Ərdoğan ilə birabər Bakı-Tbilisi-Qars dəmir yolunun açılışını etdik. Bu layihəyə əlavə 100 milyon dollardan çox sərmayə qoyulacaq və onun ötürücülük qabiliyyəti hazırkı 1 milyondan 5 milyon tona çatdırılacaq.

Azərbaycan 50-dən çox yük gəmisi ilə Xəzər dənizində ən böyük ticarət donanmasına malikdir. 2013-cü ildə istismara verilmiş Bakı gəmiqayırma zavodu hazırda tam gücü ilə işləyir. Bu zavodda istənilən növ gəmilər inşa edilə bilər.

Azərbaycan 18 yük təyyarəsi ilə regionumuzda ən böyük mülki hava yük donanmalarından birinə malikdir. Növbəti 10 il ərzində yük donanmamıza daha 9 təyyarənin əlavə edilməsi nəzərdə tutulmuşdur.

Hazırda Azərbaycanda 8 beynəlxalq hava limanı fəaliyyət göstərir. İşğaldan azad olunmuş ərazilərdə inşa edilmiş Füzuli və Zəngilan hava limanlarının açılışında Türkiyə Prezidenti, əziz qardaşım Rəcəb Tayyib Ərdoğan iştirak etmişdir. İşğaldan azad olunmuş Laçında ölkəmizin sayca 9-cu beynəlxalq hava limanının 2024-cü ildə açılması nəzərdə tutulub.

2020-ci ilin sonunda 44 günlük Vətən müharibəsində əldə olunmuş Zəfər nəticəsində torpaqlarımız Ermənistanın 30 illik işğalından azad edildi. Qarabağ münaqişəsi həll edildi və bu Qələbə regionda yeni nəqliyyat-kommunikasiya layihələri üçün əlverişli imkan yaratdı.

Hazırda dünyada yeni çağırışlar və təhdidlər var. Bu səbəbdən digər sahələr ilə yanaşı, ölkələrimiz arasında təhlükəsizlik, müdafiə, müdafiə sənayesi kimi sahələrdə də əməkdaşlığın genişləndirilməsi böyük önəm daşıyır.







Bir daha Azərbaycan-Türkiyə-Türkmənistan üçtərəfli formatında görüşün önəmini vurğulamaq istərdim. Ümid edirəm ki, belə görüşlər bundan sonra müntəzəm olaraq keçiriləcək və qardaş ölkələrimiz arasında münasibətlərin daha da inkişaf etməsinə böyük töhfə verəcək.

Sağ olun.

Daha sonra Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxış edib.

* * *

Dekabrın 14-də Türkmənbaşı şəhərində prezidentlər İlham Əliyevin, Rəcəb Tayyib Ərdoğanın və Sərdar Berdiməhəmmədovun geniş tərkibdə görüşündən sonra Azərbaycan-Türkiyə-Türkmənistan sənədləri imzalanıb.

Əvvəlcə Azərbaycan Respublikası, Türkiyə Respublikası və Türkmənistan Dövlət Başçılarının Birinci Zirvə Görüşünün Birgə Bəyanatı qəbul edilib.

"Ticari-iqtisadi əməkdaşlıq haqqında hökumətlərarası Saziş"i Türkmənistan Nazirlər Kabineti sədrinin müavini Batır Atdayev, Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və Türkiyə Respublikasının ticarət naziri Mehmet Muş imzalayıblar.

"2023-2025-ci illər üzrə elm, təhsil və mədəniyyət sahələrində əməkdaşlığa dair hökumətlərarası Çərçivə Proqramı"nı Türkmənistan Nazirlər Kabineti sədrinin müavini Nurməhəmməd Amannepesov, Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və Türkiyə Respublikasının xarici işlər naziri Mövlud Çavuşoğlu imzalayıblar.

"Gömrük əməkdaşlığına dair Birgə məşvərət komissiyasının yaradılması haqqında qarşılıqlı anlaşmaya dair Hökumətlərarası Memorandum"u Türkmənistanın Dövlət Gömrük Komitəsinin sədri Maksat Xudayqulıyev, Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və Türkiyə Respublikasının ticarət naziri Mehmet Muş imzalayıblar.

"Energetika sahəsində əməkdaşlığın inkişaf etdirilməsi ilə bağlı qarşılıqlı anlaşmaya dair Qurumlararası Memorandum"u "Türkmənqaz" Dövlət Konserninin sədri Batır Amanov, Azərbaycan Respublikasının energetika naziri Pərviz Şahbazov və Türkiyə Respublikasının energetika və təbii sərvətlər naziri Fatih Dönməz imzalayıblar.

"Nəqliyyat sahəsində əməkdaşlığın inkişaf etdirilməsi ilə bağlı qarşılıqlı anlaşmaya dair Qurumlararası Memorandum"u Türkmənistanın Nazirlər Kabineti yanında Nəqliyyat və Kommunikasiyalar Agentliyinin baş direktoru Məmmədxan Çakıyev, Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və Türkiyə Respublikasının nəqliyyat və infrastruktur naziri Adil Qaraismayıloğlu imzalayıblar.

* * *

Dekabrın 14-də Türkmənbaşı şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanla görüşü olub.

Görüşdə ikitərəfli dostluq və qardaşlıq münasibətlərimizin bu il də bütün sahələrdə daha da genişləndiyi vurğulanıb. Birgə keçirilmiş hərbi təlimlərin müvəffəqiyyətlə başa çatdırıldığı qeyd olunub. Siyasi, hərbi, iqtisadi, nəqliyyat, energetika, müdafiə, müdafiə sənayesi sahələrində əməkdaşlığımızın bu il də uğurla davam etdirildiyi bildirilib.



Görüşdə əlaqələrimizin perspektivləri barədə fikir mübadiləsi aparılıb.

(Ardı 3-cü səhifədə)

# Azərbaycan Prezidenti İlham Əliyevin Türkmənistana səfəri



(Əvvəli 2-ci səhifədə)

* * *

Dekabrın 14-də Türkmənbaşı şəhərində Azərbaycan Respublikası, Türkiyə Respublikası və Türkmənistan Dövlət Başçılarının Birinci Üçtərəfli Zirvə Görüşü çərçivəsində Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyeva, Türkmənistan Parlamenti Xalq Məsləhətinin sədrinin xanımı Oqulgerek Berdiməhəmmədova, Türkiyə Respublikasının birinci xanımı Əminə Ərdoğan təsviri və dekorativ sənət əsərlərindən ibarət sərgilərlə tanış olublar.

Türkmənistanın təsviri və dekorativ sənət əsərləri sərgisi 11 bölmədən ibarətdir.

Sərginin bölmələrində türkmən xalqının bütün dünyada məşhur xalça və xalça məmulları, keşdə üslubunda hazırlanmış milli qadın geyimləri, qadınlar üçün milli zinət əşyaları, o cümlədən üzük, sırğa, bilərzik və digər aksesuarlar, türkmən qadın rəssamlarının əsərləri və əl işləri nümayiş olunurdu.

Eyni zamanda, sərgidə milli "ume" ayini icra olunub, türkmən təbiətinin gözəlliyini və xüsusiyyətlərini əks etdirən xalçalar təqdim edilib.

Sonra türkmən qızlar folklor mahnıları ifa ediblər, toy adət-ənənələri təqdim olunub. Həmçinin yerli qadınların hazırladıqları keramika nümunələri, tikmələr, keçə xalçalar qonaqlarda xoş təəssürat yaradıb.

Tədbir çərçivəsində Azərbaycanın birinci xanımı Mehriban Əliyevaya xatirə hədiyyələri təqdim edilib.

Daha sonra konsert proqramı və Türkmənistanın milli geyimləri nümayiş olunub.

* * *

Sərgi ilə tanışlıqdan sonra Azərbaycanın birinci xanımı Mehriban Əliyeva, Türkmənistan Parlament Xalq Məsləhətinin sədrinin xanımı Oqulgerek Berdiməhəmmədova və Türkiyənin birinci xanımı Əminə Ərdoğan çay süfrəsi arxasında söhbət ediblər.

* * *



Dekabrın 14-də Türkmənbaşı şəhərində Türkmənistan Parlamenti Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədovun adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və xanımı Mehriban Əliyevanın, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın və xanımı Əminə Ərdoğanın şərəfinə rəsmi nahar verilib.



* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Türkmənistana səfəri dekabrın 14-də başa çatıb.

Türkmənbaşı şəhərinin beynəlxalq aeroportunda dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülüb.

Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı Türkmənistan Nazirlər Kabineti sədrinin müavini, xarici işlər naziri Rəşid Meredov və digər rəsmi şəxslər yola salıblar.

**AZƏRTAC-ın materialları əsasında**

## Müdafiə Nazirliyi və Baş Prokurorluğun birgə məlumatı

*Dekabrın 14-də, saat 18 radələrində Kəlbəcər rayonunun Çıraq kəndi ərazisində 8 nəfər şəxsin minaya düşməsi barədə Kəlbəcər hərbi prokurorluğuna məlumat daxil olub.*

Aparılmış ilkin araşdırmalarla müəyyən olunub ki, təmir-tikinti işləri ilə məşğul olan şirkətin 4 nəfər əməkdaşı Kəlbəcər rayonunun Çıraq kəndi ərazisində piyada əleyhinə minaya düşüb.

Həmçinin müəyyən olunub ki, təxliyə ilə bağlı hadisə yerinə yollanan 4 nəfər hərbçi də minaya düşüb, onlardan 3-ü müxtəlif dərəcəli bədən xəsarətləri alıb, 1-i isə ölüb.

Hazırda faktla bağlı Kəlbəcər hərbi prokurorluğunda araşdırma aparılır.

*Medallı igidlərimiz*

# Vətən müharibəsi tariximizə Zəfərlə yazıldı

*Azərbaycan xalqının tarixinə nəzər salsaq, hər zaman fəxr ediləcək mərd oğullarla dolu səhifələr görərik. Bu tarix Babək Xürrəmi, Şah İsmayıl Xətai, Cəmşid Naxçıvanski, Əlağa Şıxlinski, Səməd bəy Mehmandarov və digər qəhrəmanların adı ilə başlayıb, Azərbaycan əsgərinin igidliyi ilə davam etdirilir. "Medallı igidlərimiz" rubrikasında ənənəvi olaraq belə hərbçilərimiz haqqında danışırıq.*

"N" hərbi hissəsində tanıdığımız zabit Sənan Xıdırov da qəhrəmanlıq ənənələrimizi davam etdirənlərdəndir. 1990-cı il avqustun 15-də Oğuz rayonunu Calut kəndində dünyaya göz açan Sənan hərbçi olmaq arzusuyla yaşayıb. O, xidmət keçən dostları ilə həmsöhbət olar, bu peşənin necə şərəfli olduğunu daha dərindən dərk etməyə çalışardı. Kiçik yaşlarından hərbiyə yaranan marağını bədii filmlər və kitablarla artıran Sənan, hələ məktəb illərində hərbçi olmağı qəti qərara aldı. Dərsdən evə qayıdaraq valideynlərinə gələcək peşəsini seçdiyini bildirdi:



"Mən zabit olacam və əcdadlarımızın hərbi ənənələrini şərəflə davam etdirəcəm. Əzəli torpaqlarımızı düşmən əsarətindən azad edəcəyəm".

Uşaqlıq arzusu Sənanı 2008-ci ildə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə (indiki Heydər Əliyev adına Hərbi İnstitut) gətirir. Oxuduğu dövrdə artilleriya ixtisasına yiyələnən Sənan "leytenant" hərbi rütbəsini alır. "Kursantlıq insanın həyatında ən yaddaqalan dövrdür, - zabit dedi.

Hazırda Heydər Əliyev adına Hərbi İnstitut kimi fəaliyyətini davam etdirən ali hərbi təhsil ocağı yarandığı gündən savadlı və peşəkar zabitlər hazırlayır. Vətəninə, xalqına, torpağına sədaqətli oğullara ali hərbi təhsil verir, yüksək fiziki və döyüş hazırlıqlı hərbçi formalaşdırır.

Zabit dedi: "Tədris dövründə təcrübəli müəllim və komandirlərimdən aldığım dərsləri həvəslə öyrənər, daim öz üzərimdə çalışardım. Artilleriyanın sirlərini dərindən mənimsəmişdim. "N" hərbi hissəsinə yollandığımda artıq gənc və peşəkar kadr kimi xidmət etməyə başladım. Nəzəri biliklərimlə yanaşı, praktiki biliklərimi də artıraraq, əzəli torpaqlarımızı düşməndən azad edəcəyimiz günü səbirsizliklə gözlədim..."

Zabitlə 2020-ci il sentyabrın 27-də Ermənistanın genişmiqyaslı təxribatının qarşısını almaq məqsədilə başlayan İkinci Qarabağ müharibəsindən də söhbət açdıq. Öyrəndik ki, Ali Baş Komandanın döyüş əmri ilə torpaqlarımızın azadlığı uğrunda gedən döyüş əməliyyatlarına kapitan Xıdırov da qatılıb, "Suqovuşanın azad olunmasına görə", "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif olunub. 44 günlük haqq savaşımızdan danışarkən onun necə fərəh və qürur hissi keçirdiyini gördüm. Onun hər kəlməsində bu günə əminlik və sabaha inam duyulurdu. "Heç kəs üçün sirr deyil ki, döyüşlər zamanı artilleriyanın rolu həddən artıq böyükdür. "Müharibənin allahı" adlandırılmış artilleriya düşməni ən uzaq məsafədən dəqiq və yaylım atəşlərilə məhv etməyə qadirdir. Əks-hücum əməliyyatları zamanı artilleriyamız ordumuzun cəsarətlə irəli atılan bölmələrinin fəaliyyətini dəstəkləyərək, qarşı tərəfin mövcud atəş nöqtələrini susdururdu. Artilleriyamızın qarşısında duran daha vacib öhdəlik düşmənin uzun illər yaratdığı istehkamı, postları, sədləri məhv etmək idi. Cəsur oğullarımız bu tapşırığı da bacarıqla yerinə yetirdilər. Cəmi 44 gün ərzində ordumuz gələcək nəsillərə örnək olacaq qəhrəmanlıq salnaməsi yazaraq, düşmənə ağır məğlubiyyət yaşatdı. Bu qələbə Müzəffər Ali Baş Komandanın sarsılmaz iradəsi, ordumuzun şücaəti və xalqla ordu arasında yaranan birliyin nəticəsində təmin olundu. Qələbə ilə bitən İkinci Qarabağ müharibəsi əbədi olaraq Azərbaycan tarixinə Zəfərlə yazıldı", - deyə zabit Sənan Xıdırov bildirdi.

Azərbaycan zabitinin, əsgərinin Vətən uğrunda gedən savaşda yeni qəhrəmanlıq salnamələrini yazacağına bir daha əmin oldum.

**Baş leytenant**
**İbrahim MƏMMƏDBƏYOV**
**"Azərbaycan Ordusu" foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# Koreya Respublikası ilə hərbi əməkdaşlıq məsələləri müzakirə edilib



Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Koreya Respublikasının Milli Assambleyasının üzvü Lii Hunseunqun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, qonaqları salamlayan nazir Koreya ilə hərbi əməkdaşlıq çərçivəsində əldə olunan nailiyyətləri yüksək qiymətləndirdiyini qeyd edib.

General-polkovnik Zakir Həsənov erməni hərbi birləşmələri tərəfindən hər hansı hərbi zərurətin olmadığı halda insan tələfatı məqsədilə Kəlbəcər rayonunun Çıraq kəndində basdırdığı mina partlayışı nəticəsində bir hərbi qulluqçumuzun şəhid olması və 4-ü mülki vətəndaş olmaqla 7 nəfərin xəsarət alması ilə bağlı koreyalı nümayəndə heyətini məlumatlandırıb.

Görüşdə, həmçinin hərbi, hərbi-texniki, hərbi-təhsil və digər sahələrdə əməkdaşlığın inkişaf perspektivləri, regional



təhlükəsizlik, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlərə dair ətraflı fikir mübadiləsi aparılıb.

*Təlim*

# “Hazırlıqlı əsgər qalib əsgərdir”

***Minaatanlar geniş meydanda məşğələ keçirdilər. Hiss olunurdu ki, əsgərlər qarşıdakı tədris ilində daha da böyük uğurlar qazanmağa çalışırlar. Məşğələ prosesində üzərlərinə düşən tapşırıqları bacarıqla yerinə yetirmələrindən onların təcrübəli olduqları duyulurdu. Əminliklə demək olardı ki, keçirilən təlimlərdə həvəslə iştirak edən əsgərlər minaatan qurğusunun taktiki-texniki xüsusiyyətlərini dərindən mənimsəyiblər. Heyət üzvləri dəfələrlə sınaqdan çıxmış təcrübədən yaxşı bilirlər ki, peşəkarlıq döyüşlərdə qələbəni təmin edən başlıca amildir. Buna görə də bütün diqqətlərini döyüş vərdişlərini mənimsəməyə yönəldiblər.***

Mayor Emin Qasımov təlim keçən şəxsi heyətdən söz açaraq dedi ki, hərbi hissəmizin zabit və əsgərləri Vətən müharibəsində əvvəldən sonadək iştirak etdilər. “Onlar torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə düşmən mövqelərinə sarsıdıcı zərbələr endirdilər. Düşmənin dayaq məntəqələrinin, mövqelərinin darmadağın edilməsində fəallıq göstərdilər. Minaatanlardan dəqiq atəşlər açaraq işğalçıların xeyli sayda canlı qüvvəsini və zirehli texnikasını məhv etdilər. Üzərlərinə düşən tapşırıqların öhdəsindən bacarıqla gəldilər. Sevincini yaşadığımız qələbə bacarıqlı zabit və əsgərlərimizin sayəsində qazanıldı. Bölmələrimiz bu gün dərs və məşğələlərdə fəal iştirak edərək, yeni döyüş vərdişlərinə yiyələnməyə çalışırlar. Zaman keçdikcə onlar daha peşəkar, daha bacarıqlı olurlar”.



Məşğələnin gedişini izlədik. Minaatan komandiri müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Ömər Məmmədov əlində tutduğu siqnal bayraqcıqlarını ardıcıllıqla yuxarı qaldıraraq, heyət nəfərlərinə müxtəlif göstəriş və tapşırıqlar verirdi. Əsgərlər komandirin tapşırıqlarını yerinə yetirmək üçün cəld və çevik hərəkətlərlə irəli atılırdılar. Minaatan qurğusunu tələb olunan vaxt çərçivəsində döyüş vəziyyətinə gətirirdilər. Sonra minaatan komandiri qurğuya yaxınlaşaraq əsgərlərin tapşırığı necə yerinə yetirdiklərini yoxlayırdı. Onun üzündən razılıq hiss olunurdu. Heyət tapşırığı qüsura yol vermədən icra edib. Təbiidir ki, təcrübə və bacarıq həm təlimlərdə, həm də döyüşlərdə özünü qabarıq şəkildə göstərir, zabitə də, əsgərə də uğur qazandırır. Döyüşün gedişini zəfərə, qələbəyə doğru istiqamətləndirir.



Təlimdə fasilə yaranada əsgər Ömər Məmmədovla söhbət etdik. O dedi ki, şəxsi heyətin döyüş hazırlığının yüksək olması üçün məşğələlərin hər dəqiqəsindən səmərəli istifadə etməyə çalışırıq. “Gördüyünüz kimi, heyət nəfərləri məşğələ prosesində qarşıya qoyulan tapşırıqları yerinə yetirmək üçün üzərlərinə düşən vəzifələrin öhdəsindən bacarıqla gəldilər. Çünki onlar minaatan qurğusunun sirlərini dərindən mənimsəyiblər. Bugünkü məşğələnin mövzusu: "Batareyanın atəş mövqeyinin tutulması və atəş açılana qədər görülən işlər"dir. Mövzuya uyğun olaraq təlim-məşqlər keçir, heyət nəfərlərinin döyüş hazırlığını daha da yüksəldirik. Əsgərin hazırlığı nə qədər yüksək olarsa, düşməni o qədər tez və asan məğlub edər. Bizim də məqsədimiz şəxsi heyətə hərbi bilik və vərdişləri hərtərəfli aşılamaqdır. Amalımız budur ki, heyət nəfərləri çevik, hazırlıqlı və peşəkar olsunlar”.

Heyət nəfərlərindən Nihad Cəfərov dedi ki, Vətənə əsgər olmağımla fəxr edirəm. “Xidmətə başladığımız ilk günlərdən təcrübəli zabitlər minaatan qurğusunun sirlərini bizə öyrətdilər. Məşğələlərdə fəal iştirak edərək qısa müddət ərzində hərbi biliklərə yiyələndik. Mən baş tuşlayıcıyam. İxtisasımı mükəmməl bilirəm. Buna görə də həmişə təlim-məşqlərdə yaxşı nəticələr göstəririk. Bir qayda olaraq, hədəflər dəqiq və vaxtında vurulur. Yaxşı bilirik ki, hazırlıqlı əsgər qalib əsgərdir! Ona görə də çalışırıq ki, dərs və məşğələlərin hər dəqiqəsindən səmərəli istifadə edərək hazırlığımızı daha da yüksəldək. Hər zaman qalib əsgər olaq”.

Heyət nəfərlərindən Emin Həsənov və Adil Nuriyev biliklərini artırmaq üçün dərs və məşğələlərdə həvəslə iştirak etdiklərindən ətraflı söz açdılar. Belə yüksək hazırlıqla ərazi bütövlüyümüzü mətinliklə qoruyacaqlarını bildirdilər.

Minaatanların təlim-məşqləri davam edirdi. Mövzuya uyğun olaraq cəld və çevik hərəkətlər edən heyət nəfərləri verilən tapşırıqları bacarıqla yerinə yetirirdilər. Əsgərlərin hazırlığının yüksək olduğunu görəndə əmin olduq ki, minaatanları daha böyük uğurlar gözləyir.

**Vahid MƏHƏRRƏMOV**
**"Azərbaycan Ordusu"**

**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**



*Tarix yazan oğullar*

# Bir həyat hekayəsinin müqəddəslik zirvəsi



Vətən müharibəsi başlayanda Tofiqin hərbi xidmətdən evə dönməsinə sayılı günlər qalırdı. O evlərinə dönəcəyi, doğmalarına qovuşacağı günü səbirsizliklə gözləyirdi. Xəyallarında hərbi xidmətdən sonra görəcəyi işlər barədə planlar cızırdı. Lakin ürəyində bir nisgil, narahatlıq vardı. Axı o da çoxları kimi Qarabağı azad edənlərin sırasında olmaq istəyirdi. Tofiq də hərbi xidmətə yollanan yüzlərlə gənc kimi valideynlərinə "Allahın izni ilə Qarabağı azad edib, qayıdacağam" sözünü vermişdi. Bu söz minlərlə gəncin Vətən qarşısında vətəndaşlıq sözüydü. Hərbi xidmətdən tərxis olunmasına az qalmışdı ki, Tofiq arzusuna çatdı. Onun kimi minlərlə gəncin həsrətində olduğu an gəlib çatmışdı. Torpaqlarımızın azadlığı uğrunda Ali Baş Komandanın əks-hücum əmri verilmişdi... 27 sentyabr 2020-ci il - Azərbaycan xalqının yaddaşından heç zaman silinməyəcək tarixi bir gün... Həmin gün "Vətən mənə oğul desə, nə dərdim, mamır olub qayasında bitərdim", - düşüncəsiylə neçə-neçə qəhrəman oğul Azərbaycanımızın ərazi bütövlüyü naminə ağır döyüşlərə, ölüm-dirim savaşına atıldı. Vətənimizin igid, qəhrəman oğulları 44 günlük savaşda xalqımızın 30 illik torpaq həsrətinə son qoydular. 20 yaşlı Tofiq də onların sırasında döyüşdü...

Ermənistan silahlı birləşmələrinin müxtəlif istiqamətlərdə törətdiyi təxribatlarının qarşısı əks-hücum əməliyyatı ilə qətiyyətlə alındı. Xalq, dövlət, ordu bir yumruq tək birləşmişdi. Torpaqlarımız erməni işğalçılarından qarış-qarış, kənd-kənd, oba-oba azad olunurdu....

Tofiqin xidmət etdiyi hərbi hissənin şəxsi heyəti də ilk gündən Suqovuşan istiqamətində düşmənə göz açmağa imkan vermirdi. Bu istiqamətdə çox ağır döyüşlər gedirdi. Manqa komandiri əsgər Tofiq Ağaquliyev də döyüşənlərin sırasında irəliləyirdi. O, Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun adı verildiyi postda hərbi xidmət keçmişdi. Bir il yarım düşmənlə üzbəüz mövqelərimizdə atıcı kimi döyüş növbətçiliyi aparmışdı. Silahının taktiki-texniki xüsusiyyətlərini mükəmməl mənimsəmişdi. Tofiqin hərbi xidmət dövründə qazandığı təcrübə, təlimlərdə əldə etdiyi döyüş vərdişləri onu peşəkar atıcı əsgər kimi formalaşdırmışdı.

Əsgər Tofiq Ağaquliyev oktyabrın 28-də torpaqlarımızın azadlığı uğrunda gedən ağır döyüşlərdə şəhidlik zirvəsinə ucalır. Cəlilabad şəhər qəbiristanlığında dəfn olunur.

Evin tək oğul övladı olan Tofiq ağılı, zəkası ilə gənc yaşlarından təhsil aldığı məktəbdə şagird və müəllimlərinin, xidmət yerində komandir və əsgər yoldaşlarının hörmətini qazanmışdı. O, canından artıq sevdiyi Vətəninə əsl oğul idi. Elə Vətən torpaqlarının azadlığı uğrunda da canından keçdi.

Tofiq Rafiq oğlu Ağaquliyev 2000-ci il dekabrın 1-də Cəlilabad şəhərində anadan olub. Ağaquliyevlər ailəsində erkən yaşlarından idmana meyilli, tərbiyəli, nizam-intizamı ilə seçilən, doğmalarının, qonşuların sevimlisinə çevrilən bir oğlan uşağı böyüyürdü. Atası Rafiq Ağaquliyev, anası Samirə xanım, bacısı Fəridə Tofiqlə fəxr edir, məktəbdə, idmanda qazandığı uğurlarına baxıb sevinirdilər. Tofiqin ən böyük arzusu Vətənə, dövlətə xidmət etmək idi.

Şəhid əsgərin artıq üçüncü doğum günüdür ki, yaxın qohumları, əzizləri, dostları, döyüş və məktəb yoldaşları, onun məzarı önündə qeyd edirlər. Ömrünü Vətənə qurban edənlərin sırasında adı qürurla çəkilən Tofiq yaşasaydı, 22 yaşı tamam olacaqdı...

Şəhid əsgərin təhsil aldığı Cəlilabad rayon Zərifə Əliyeva adına 7 nömrəli tam orta məktəbdə xatirəsini yaşatmaq üçün dörd sinif otağına adı verilib, guşə yaradılıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamlarına əsasən, 44 günlük Vətən müharibəsində göstərdiyi şücaətə və fədakarlığa görə əsgər Tofiq Rafiq oğlu Ağaquliyev "Suqovuşanın azad olunmasına görə", "Laçının azad olunmasına görə", "Vətən uğrunda" medallarına layiq görülüb.

Düşünürəm ki, Tofiq və onun timsalında bütün şəhidlərin həyat hekayəsinin hansısa mərhələsində Vətən sevgisinin işığını görməmək mümkün deyil. Bu işıq müqəddəslik işığıdı, bu işıq bir gəncin daim xatirələrdə yaşayacağının göstəricisidir. Vətəninə bağlı bu gənclər torpaq uğrunda canından keçərək torpağa yollansalar da, heç zaman sönməyəcək ulduztək xatirələrdə yaşayacaqlar.

**Lalə HÜSEYNOVA**
**"Azərbaycan Ordusu"**

# Gənclərin milli vətənpərvər ruhda tərbiyə olunması vacib şərtdir




*Bir insanın doğulub, böyüyüb, boya-başa çatdığı torpağa Vətən deyilir. Vətəni sevmək, göz bəbəyi kimi qorumaq və onun uğrunda istənilən an canından keçmək isə vətənpərvərlik deməkdir. Vətənpərvərlik hər bir insanın daxilində olan hissdir. Əlbəttə, adi sözdə deməklə iş bitmir. Bu, əməllə və gördüyün işlə sübut edilməlidir. O, daxildən gələn bir hiss olduğu üçün onu tərbiyələndirmək və düzgün istiqamətə yönəltmək lazımdır. Vətənpərvərlik tərbiyəsi Vətəni sevməkdən qaynaqlanır. Vətənin tarixinə, mədəniyyətinə, adət-ənənələrinə, tarixi qəhrəmanlarına, sərkərdələrinə dərindən bələd olmaq lazımdır.*

Belə ki, xalqımızın Ümummilli Lideri Heydər Əliyev gənc nəslin vətənpərvər ruhda tərbiyə olunması üçün öz müdrik məsləhət, tövsiyə və tapşırıqlarını verirdi. Ulu Öndər bu məsələ ilə bağlı demişdir: "Gənclərimiz bizim tariximizi yaxşı bilməlidir, keçmişi yaxşı bilməlidir, dilimizi yaxşı bilməlidir, milli dəyərlərimizi də yaxşı bilməlidir. Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən, tarixi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz. Hər bir gənc vətənpərvər olmalıdır. Vətənpərvərlik sadəcə orduda xidmət deyil, Vətənə sadiq olmaq, Vətəni sevmək, torpağa bağlı olmaq - budur, vətənpərvərlik!". Ümummilli Liderin siyasi kursunun layiqli davamçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev də hər zaman gənclərin vətənpərvər ruhda tərbiyə olunmasının vacibliyini vurğulayır. Və çıxışlarının birində dediyi kimi: "Gənclərin vətənpərvərlik ruhunda tərbiyə edilməsi xüsusi əhəmiyyət daşıyır. Çünki sirr deyil ki, bu gün bəzi hallarda bəzi xarici dairələr gənclərimizin beyinlərini zəhərləmək, onlara xalqımıza yad olan dəyərləri aşılamaq istəyirlər. Buna qətiyyən yol verməmək olmaz. Azərbaycan gənci Azərbaycan dəyərləri, ənənəvi dəyərlər əsasında tərbiyə almalıdır, Vətənə bağlı olmalıdır, Azərbaycan dəyərlərini hər şeydən üstün tutmalıdır, öz tarixini, ədəbiyyatını, ana dilini mükəmməl bilməlidir, fəxr etməlidir ki, Azərbaycan vətəndaşıdır. Ona görə bu məsələyə çox böyük diqqət verilməlidir. Mən gənclərimizin vətənpərvərlik ruhunda tərbiyə olunması ilə əlaqədar gedən prosesləri müsbət qiymətləndirirəm".

Yeniyetmə və gənc nəslin milli köklərimizə bağlılıq, vətənpərvərlik, dövlətçiliyə sədaqət ruhunda tərbiyə olunması işindən, peşəsindən asılı olmayaraq hər kəsin qarşısında duran ən ümdə vəzifələrdəndir. Ordu sıralarında da gənclərin vətənpərvər ruhda tərbiyə edilməsi əsas məsələlərdən biridir. Bu səbəbdən hərbi hissələrdə şəxsi heyətlə mütəmadi olaraq söhbətlər aparılır, tarixi muzeylərə ekskursiyalar təşkil olunur və müxtəlif mövzulu tədbirlər keçirilir.

"N" hərbi hissəsində baş leytenant Kənan Zamanov şəhidlərin xatirəsinə düzəldilən guşənin önündə əsgərlərə Vətən müharibəsində xüsusi qəhrəmanlıq nümayiş etdirərək, şəhadətə yüksələn oğullarımızdan, onların döyüş yollarından və əldə edilən tarixi Zəfərimizdən danışırdı.

- Bildiyiniz kimi, 90-cı illərdə xain erməni işğalçıları tarixi torpaqlarımıza soxularaq dinc əhalimizi xüsusi amansızlıqla qətlə yetirdilər. Həmin andan etibarən dədə-baba yurdlarımızı işğal etdilər. Onların yeritdiyi işğalçılıq siyasəti illərdir ki, davam edirdi. Biz isə uzun zamandır səbir edib, torpaqlarımızı sülh yolu ilə geri qaytarmaq istəyirdik. Lakin Ermənistan dövləti hər dəfəsində istəyimizi rədd edirdi. 2020-ci il sentyabrın 27-də isə səbrimizin son damlası oldu. Erməni silahlı birləşmələrinin həyata keçirdiyi genişmiqyaslı təxribatlarının qarşısını almaq məqsədilə rəşadətli ordumuz əks-hücum əməliyyatına başladı. Döyüşlərin birinci günündən etibarən cəsur oğullarımız şəhidlərimizin qisasını alaraq, ard-arda torpaqlarımızı mənfurlardan azad edirdi. Ali Baş Komandanın rəhbərliyi altında cəmi 44 gün davam edən haqq savaşımızla bütün dünyaya Azərbaycan Ordusunun gücünü sübut edərək, tarixi ədaləti bərqərar etdik. Əlbəttə, bu qələbəni bizlərə bəxş edən şəhidlərimiz, qazilərimiz və ordumuzun rəşadəti oldu. Guşədə gördüyünüz oğullarımızın və onların timsalında olan bütün şəhidlərimizin canı bahasına torpaqlarımız düşməndən azad olundu. Məhz onların sayəsində doğma Qarabağımızın üzərindən qara buludlar çəkildi və xalqımız doğma diyarına qovuşdu. Bu gün hər bir Azərbaycan vətəndaşının borcudur ki, belə qəhrəman oğullarımızı tanısın, onların döyüş yollarını örnək bilsinlər.

Zabit Kənan Zamanov söhbətinə davam edərək bildirdi ki, bizim vəzifəmiz şəxsi heyətin yalnız döyüş, atəş və fiziki hazırlıqlarını artırmaq deyil, həm də onları Vətənə layiqli şəxsiyyət kimi hazırlamaqdır. "Burada onların vətənpərvərlik hisslərini də artırırıq. Bu bir neçə üsullarla həyata keçirilir. Asudə vaxtlarında hərb tariximizdən, sərkərdələrimizdən söhbətlər edir, film izləmələrinə və kitab oxumalarına şərait yaradırıq. Çünki gənc nəslin milli vətənpərvər ruhda tərbiyə olunması son dərəcə vacib şərtdir və qarşımızda duran ən mühüm vəzifələrdəndir. Məqsədimiz şəxsi heyətə hərbin sirlərini aşılamaqla yanaşı, həm də onları layiqli bir vətəndaş kimi formalaşdırmaqdır".

**Kapitan**
**Orxan HÜSEYNLİ**
**"Azərbaycan Ordusu"**

*Nümunəvi xidmət*

# Onun da sevgisi Vətəndir

Bəşəriyyət yarandığı gündən xalqımız özündə dövlətçilik ənənələrini qoruyub saxlayıb. Dövlətə və dövlətçiliyimizə qarşı tarixən yadellilərin hücumları olub. Lakin xalqımız bütün mübarizələrdən üzüağ çıxıb. Bu gün də dövlətimizə, onun ərazi bütövlüyünə qarşı olan erməni hücumlarının qarşısı qətiyyətlə alınır.

Ötən əsrin sonlarından başlanan erməni silahlı dəstələrinin hücumları nəticəsində onlar Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Qarabağı 30 ilə yaxın öz nəzarəti altında saxlasa da, xalqımız bu illər ərzində düşmənin işğalçılıq siyasəti ilə barışmadı. Dövlətimizin başçısı hər zaman Azərbaycanın beynəlxalq aləmdə tanınan ərazi bütövlüyünü bərpa etmək məqsədilə erməni silahlı dəstələrinin sülh danışıqları yolu ilə işğal etdikləri ərazilərimizdən çıxarılmasını təkidlə tələb edib. Ancaq bu illər ərzində qarşı tərəf Azərbaycanın bu qətiyyətli tələbi ilə razılaşmayıb.

Nəticədə 27 sentyabr 2020-ci ildə əks-hücum əmri ilə ordumuz düşməni darmadağın edərək ərazilərimizi azad etdi. Bu yolda Azərbaycan Ordusunun hər bir fərdi şəhidliyi, qaziliyi gözə alaraq döyüşlərə atıldı, qəhrəmanlıq göstərdi.

İkinci Qarabağ müharibəsinin başladığı ilk gündən qəhrəmanlıq göstərənlərdən biri də gizir Orxan Bəşir oğlu Nəcəfovdur. O, Talış və Suqovuşan istiqamətində gedən döyüşlərdə erməni silahlı dəstələrinə qarşı qətiyyətlə döyüşüb.

Gizir Orxan Nəcəfov İkinci Qarabağ müharibəsində ordumuzun ayrı-ayrı qoşun növləri üzərinə düşən döyüş tapşırığını yüksək səviyyədə yerinə yetirdiyini bildirdi: "Uzun sürən atəşkəs dövründə düşmən müqavimət göstərmək üçün istehkam qurğuları düzəltmişdi. Düşmənin "alınmaz" hesab



etdiyi bu səngərlər qısa müddətdə alındı".

Neftçala rayonundan olan Orxan dedi ki, bir amalımız vardı: düşmən tapdağı altında qalan ərazilərimizi azad etmək. "Əsgər kimi cəbhə bölgəsində xidmət etmişəm. Səngərin o tayında erməni işğalında qalan torpaqlarımıza baxdıqca hiddətlənir, tezliklə müharibənin başlanmasını istəyirdim. Ancaq əsgər kimi xidmət etdiyim zaman döyüş olmadı. Tərxis olunsam da, qısa müddətdə yenidən ordu sıralarına qayıtdım və müharibə iştirakçısı oldum. Buna görə də taleyimdən razıyam".

Talış və Suqovuşan yaşayış məntəqələrinin yağı tapdağından azad edilməsində gizir Orxan Nəcəfov döyüşçü yoldaşları ilə birgə fəallıq göstərib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamı ilə Orxan Nəcəfov "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif olunub. Vətən qarşısında xidməti borcunu ləyaqətlə yerinə yetirən gizir Orxan Nəcəfov bu gün tabeliyində olan əsgərləri nümunəvi xidmət etməyə sövq edir. O bununla Vətənə sonsuz məhəbbətini, tükənməz sevgisini təsdiq edir.

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**

## Azərbaycan-NATO tərəfdaşlığının perspektivləri müzakirə edilib

Azərbaycan Respublikasının NATO yanında nümayəndəliyinin başçısı Cəfər Hüseynzadə NATO Baş katibinin Cənubi Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi Xavyer Kolomina ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşdə tərəflər Azərbaycan-NATO tərəfdaşlığının perspektivləri, ölkəmizin beynəlxalq sülh və təhlükəsizliyə töhfəsi, həmçinin enerji təhlükəsizliyi və regional məsələlər ətrafında müzakirələr aparıblar.

## Ordumuzun mövqeləri atəşə tutulub

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, dekabrın 15-i saat 20:00-da Ermənistan silahlı qüvvələrinin bölmələri Qarakilsə rayonunun Qızılcıq yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Laçın rayonunun Əhmədli yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini atıcı silahlardan atəşə tutub.

Bundan başqa, dekabrın 15-i saat 20:10-da Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstəsinin üzvləri tərəfindən ordumuzun Ağdam rayonu istiqamətində yerləşən mövqeləri də atıcı silahlardan atəşə tutulub.

Qeyd olunan istiqamətlərdə yerləşən bölmələrimiz tərəfindən adekvat cavab tədbirləri görülüb.

* * *

Dekabrın 16-sı saat 12:00-dan saat 13:50-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Tovuzqala rayonunun Müsürskənd, Basarkeçər rayonunun Yuxarı Şorca yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Tovuz rayonunun Ağdam, Kəlbəcər rayonunun Zəylik yaşayış məntəqələri istiqamətlərində yerləşən mövqelərini müxtəlif çaplı atıcı silahlardan fasilələrlə atəşə tutub.

Bundan başqa, dekabrın 16-sı saat 13:05 radələrində Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstəsinin üzvləri tərəfindən Ordumuzun Xocavənd rayonu istiqamətində yerləşən mövqeləri də atəşə tutulub.

Qeyd olunan istiqamətlərdə yerləşən bölmələrimiz tərəfindən adekvat cavab tədbirləri görülüb.

## Kəlbəcərdə mina partlayışının baş verdiyi əraziyə giriş təhlükəsizlik məqsədilə bağlanıb



Ötən gün Kəlbəcərdə tank əleyhinə mina partlayışı nəticəsində bir hərbçimiz şəhid olmuşdur. Hazırda ərazidə yoxlama işləri davam etdirilir.

AZƏRTAC-ın Kəlbəcərə ezam olunmuş müxbiri xəbər verir ki, bunu Müdafiə Nazirliyinin Quru Qoşunlarının zabiti, mayor Ruslan Səmədov jurnalistlərə açıqlamasında deyib.

"Dekabrın 14-də saat 18 radələrində Kəlbəcər rayonunun Çıraq kəndi ərazisində tikinti şirkətinə məxsus traktor minaya düşdükdən sonra yaxınlıqdakı bölmədən təxliyə qrupu əraziyə göndərilmək üçün ayrılmışdı. Qrup yaralıları ərazidən təxliyə edərkən ikinci mina partlayışı baş vermişdir. İkinci mina partlayışı nəticəsində bir hərbi qulluqçumuz şəhid olmuşdur. Minanın tank əleyhinə olduğu müəyyən edilmişdir. Təhlükəsizlik məqsədilə əraziyə giriş bağlanıb", - deyə o bildirib.

Qeyd edək ki, dekabrın 14-də saat 18 radələrində Kəlbəcərin Çıraq kəndi ərazisində səkkiz nəfər minaya düşüb. Belə ki, kənd ərazisində infrastruktur layihələrində çalışan 4 nəfər minaya düşərək xəsarət alıb. Onları təxliyə etmək üçün hadisə yerinə yollanan dörd hərbçi də minaya düşüb. Hərbçilərdən üçü müxtəlif dərəcəli bədən xəsarətləri alıb, biri isə həlak olub.

*Əsgərin tribunası*

# Zəfər şəhidlərimizin ruhunu da yaşadır

Ali Baş Komandanın döyüş əmrini biz də arzulayırdıq.

Əsgər yoldaşım - dostum Rafiq tərxis ediləndə demişdi: Döyüşlərdə iştirak etmək bizə qismət olmadı. Biz də qalib əsgər kimi tərxis olunmaq istəyirdik. Rafiqi tez-tez xatırlayırdıq. Bu xatırlama döyüş əmrinin tez verilməsi istəyi idi. Əsgər dostumuzun təəssüfünü İkinci Qarabağ müharibəsi başlayanda daha dərindən dərk etdik.

Döyüş əmri 2020-ci il sentyabrın 27-də verildi. İkinci Qarabağ müharibəsi başladı...

Xidmət etdiyim hərbi hissə döyüşlərə Füzulidən cəlb edildi. Şəxsi heyət qətiyyətlə döyüşürdü. Qısa müddətdə düşmənin işğal dövründə yaratdığı, möhkəmləndirdiyi sədləri dağıdaraq irəliləyirdik. Mövqe qələbələri qazanırdıq. Komandanlığın əmri ilə bölüyümüz Qubadlı istiqamətinə göndərildi. Bu yerdəyişmə döyüş ruhumuzu daha da yüksəltmişdi: Komandanlıq bizdən razı idi. Şuşaya yaxınlaşmağımız bizi sevindirirdi - Daşaltı uğrunda döyüşləri Şuşa uğrunda gedəcək döyüşlərin başlanğıcı bilirdik. Əsgər yoldaşlarımızdan biri 29 il əvvəl burada baş verənləri, əsgərlərimizin necə şəhid olmasını xatırlatdı. Bu döyüşü həm işğaldan qurtuluş döyüşü bilirdik, həm də Daşaltıda şəhid olanlarımızın qisas döyüşü.



Daşaltının itirilməsini Şuşanın işğaldan azad ediləcəyinə səbəb ola biləcəyini güman edən düşmən ciddi müqavimət göstərirdi. Bu müqavimət davamlı olmadı. Sədləri dağıdılan düşmən pərakəndəliklə meşəliklərə səpələndi. Bu da onları qurtuluşa çıxarda bilmədi. Düşmən silahını atıb qaçırdı...

Daşaltı uğrunda döyüşlər o qədər də çox çəkmədi. Döyüş qələbəmizlə başa çatdı. Əmr verilən kimi Şuşa uğrunda döyüşəcəkdik.

Əmrə əsasən biz Şuşaya başqa istiqamətdən yaxınlaşdıq. Döyüşçülərimiz dağların sıldırımını dəf edərək Şuşaya girdilər. Zəfərdən sonra rusiyalı jurnalistin bu əməliyyatı möcüzə adlandırması hamımız kimi, məni də qürurlandırdı. Qürurlandım ki, xarici jurnalist bu qələbəni qazananların qüdrətini bəyənib...

Mən bir gün əvvəl qapalı kəllə-beyin travması almışdım. Şuşaya gedənlərin sırasında olmamağın təəssüfünü son nəfəsiməcən yaşayacağam. Şuşanın azad olunduğu gecə dünyanın ən gözəl gecəsi olub.

Prezidentimizin dediyi kəlamları da unutmuruq, o kəlamlarla qürurlanırıq: "Şuşa Qarabağın tacıdır! Şuşanın azad edilməsi həm böyük siyasi, həm böyük strateji, eyni zamanda, çox böyük mənəvi məna daşıyır. Biz Şuşaya qayıtdıq, biz Şuşanı qaytardıq, biz Şuşada yaşayacağıq".

Vətən müharibəsi Zəferimizlə başa çatdı. Bu Zəfər əbədiyyən bu ovqatla qeyd olunacaq...

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamları ilə təltif edildiyim "Qubadlının azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medallarını şəhid döyüşçülərimizin ruhu kimi əzizləyirəm...

**Kiçik çavuş**
**Əsgər HACIYEV**
**"N" hərbi hissəsi**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# Azərbaycan Ordusunda "İlin ən yaxşı psixoloqu" müsabiqəsi keçirilib





2022-ci ilin hazırlıq planına əsasən, Azərbaycan Ordusunda "İlin ən yaxşı psixoloqu" müsabiqəsi keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, müsabiqədə qoşun növləri və xüsusi təyinatlı təhsil müəssisələrinin hərbi psixoloqları iştirak ediblər.

Müsabiqənin keçirilməsində əsas məqsəd hərbi psixoloqların ixtisas hazırlıq səviyyəsinin yoxlanılması və təcrübə mübadiləsi əsasında onların bilik və bacarıqlarının artırılmasıdır.

Yekun mərhələnin nəticələri təhlil edildikdən sonra qaliblər müəyyən edilib və komandanlıq tərəfindən mükafatlandırılıb.

## "Ərazidən götürdüyümüz dəlillər tank əleyhinə TM 62M tipli minanın hissələrinə bənzəyir"

***Ötən gün Kəlbəcərdə partlayışın baş verdiyi ərazi minalarla çirkləndiyinə görə media işçilərinin həmin yerə getməsi tövsiyə olunmur. Əraziyə baxış keçirilib, partlayış yerinin krateri yoxlanılıb, dəlillər götürülüb. İlkin ehtimala görə, tank əleyhinə TM 62M tipli mina partlayıb.***

AZƏRTAC-ın Kəlbəcərə ezam olunmuş müxbiri xəbər verir ki, bunu jurnalistlərə açıqlamasında ANAMA-nın Göygöl regional mərkəzinin təlimatçısı Vasif Cəbrayılov deyib.

"Ərazidən götürdüyümüz dəlillər də həmin minanın hissələrinə bənzəyir. Bu mina təzyiqlə işə düşür, tərkibində 7,5 kiloqram partlayıcı maddə var. Ərazi hazırda mühafizə olunur", - deyə o əlavə edib.

Qeyd edək ki, dekabrın 14-də saat 18 radələrində Kəlbəcərin Çıraq kəndi ərazisində səkkiz nəfər minaya düşüb. Belə ki, kənd ərazisində infrastruktur layihələrində çalışan 4 nəfər minaya düşərək xəsarət alıb. Onları təxliyə etmək üçün hadisə yerinə yollanan dörd hərbçi də minaya düşüb. Hərbçilərdən üçü müxtəlif dərəcəli bədən xəsarətləri alıb, biri isə həlak olub.

## "Göndərilən kitablar bizi çox sevindirdi"



İşgüzar günün sonunda ruhu və beyni qidalandırmaq üçün kitab oxumaq vacibdir. Bu fəaliyyət gündəlik həyatın qayğılarından uzaqlaşmaq üçün ən düzgün seçimdir. Çünki oxumaq fərdi inkişafa və sağlamlığa böyük töhfə verir. Oxuduğumuz kitablar bizi çox fərqli insana çevirir. Artıq dünyanı fərqli olaraq qavramağa başlayırıq. Zəkamız kəskinləşir, beyin gücümüz artır. Statistikaya görə, kitab oxuyan cəmiyyətlər digərləri ilə müqayisədə daha çox inkişaf edib və mədəni səviyyələri yüksəkdir. Sehrli bir əşya olan kitabları oxuyarkən getmədiyimiz yerlərə gedir, başqaları kimi düşünür, hətta fərqli zamanlara səfərlər edirik. Kitablar haqqında Həsən bəy Zərdabinin "Yaxşı kitab çox qiymətli xəzinədir", Mirzə Ələkbər Sabirin "Kitab sənin ilk dostundur", Şekspirin "Kitablarım mənə kifayət edəcək qədər böyük bir krallıqdır", Maksim Qorkinin "Kitablar özünüzə və başqalarına hörmət etməyi öyrədəcək, ürəyi və ağlı, dünya və insanlıq sevgisiylə dolduracaq" dediyi kəlamlar kitab oxumağın faydasının bir daha sübutudur.

İnsanın şəxsiyyət kimi formalaşmasında, dünyagörüşünün artırılmasında mühüm əhəmiyyətli vərdişlərdən olan kitab oxumaq bütün sahələrdə olduğu kimi, ordumuzda da diqqətdə saxlanılır. Hər kəsə bəllidir ki, hərbi xidmət gənclərin təkcə döyüş hazırlıqlı əsgərlər kimi yox, həm də hərtərəfli şəxsiyyət kimi formalaşdığı həyat məktəbidir. Burada gənclər hərbi sirlərə, döyüş vərdişlərinə yiyələnməklə yanaşı, mütaliə edir, bədii əsərlər, jurnallar da oxuyurlar. Dövlətimiz tərəfindən ordumuza göstərilən qayğının nəticəsində heç nədən korluq çəkmədən xidmət edən gənclərə oxumaq, dünyagörüşünü artırmaq üçün də lazımi şərait yaradılır.

Bu istiqamətdə cəmiyyətimiz tərəfindən də bir çox uğurlu addımlar atılır. Vətən müdafiəçilərinə kitablar göndərilir. Möhkəm tellərlə bağlı olan ordu-xalq birliyinin növbəti təzahürü olan "Əsgərin kitab rəfi" layihəsi də belə tədbirlərdəndir. Müdafiə Nazirliyinin təşkilatçılığı, İrəli İctimai Birliyinin dəstəyi ilə təşkil olunan "Əsgərin kitab rəfi" adlı kitab toplama aksiyasında müxtəlif dövlət qurumlarının, özəl müəssisələrin, təşkilatların nümayəndələri və vətəndaşlar fərdi qaydada aktiv iştirak edirlər. Əsgələrin asudə vaxtlarının səmərəli keçirilməsi və mütaliəyə marağının artırılması məqsədilə bu ilin mayında start götürən aksiya çərçivəsində toplanan kitablar növbəti dəfə hərbi qulluqçularımıza çatdırıldı. Elmi, bədii, publisistik və digər janrlarda olan kitablar şəxsi heyətin böyük marağına səbəb oldu. Həvəslə yeni gələn kitabları vərəqləyən hərbi qulluqçular bu layihənin həyata keçməsində zəhməti olanlara təşəkkürlərini bildirdilər.

Kitab oxumağın şəxsi heyətin asudə vaxtlarında ən sevdiyi məşğuliyyətlərindən olduğunu bildirən kiçik leytenant Eşqin İbrahimov, bu aksiyada fəal iştirak edərək onlara kitablar yollayan vətəndaşlarımıza dərin minnətdarlığını bildirdi: "Xalqımızın bizə olan sonsuz güvənini və dəstəyini hər an hiss edirik. Bu da nümunəvi xidmətimizə böyük stimul olur. Bu aksiya Azərbaycan əsgərinə olan dərin rəğbətin göstəricisidir. Həm də bu diqqət şəxsi heyətin mənəvi-psixoloji hazırlığına müsbət təsir edərək, yüksək döyüş ruhu aşılayır. Göndərilən müxtəlif janrlarda kitabları oxumaqla fərqli sahələrdən məlumatlanır, biliklərimizi artırırıq. Bədii əsərlər, şeirlər oxuyaraq ruhumuzu qidalandırırıq. Bir sözlə, kitablar hərtərəfli inkişafımızda mühüm rol oynayır".

Yeni dost qazanmağın sevincini yaşayan əsgər Elşən Qasımov da düşüncələrini bölüşdü. "Kitab etibarlı dost kimidir. Səni düzgün yola səsləyir, maarifləndirir, bilmədiklərini öyrədir. Bizə belə dəyərli dost hədiyyə edənlərin hər birinə təşəkkürümü bildirirəm".

Əsgər Mehrac Əliyev də bu aksiyadan razılığını bildirdi. "Bütün fəaliyyətlərimiz kimi asudə vaxtlarımız da səmərəli təşkil olunur. Asudə vaxtlarda ən sevilən məşğuliyyətlərdən biri də kitab oxumaqdır. Müxtəlif kitabları oxuyur, sonra isə silahdaşlarımıza əsərdə baş verən hadisələri müzakirə edirik. Bu da oxumağa olan marağımızı daha da artırır".

Əsgərlər Elsevər İbadov, Elvin Əlizadə, Fərid Həsənov və başqaları da fikirlərini bölüşdülər. Aksiyaya qoşularaq öz kitablarını onlara göndərən qardaş və bacılarına minnətdar olduqlarını dedilər. Xalqımız tərəfindən belə yüksək sevgiylə əhatələnməyin qürurunu yaşadıqlarını bildirən əsgərlər vurğuladılar ki, göndərilən kitablar bizi çox sevindirdi.

**Baş leytenant**
**Mahmud MÖHBALIYEV**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

### PKK terror təşkilatına növbəti zərbə





Türkiyənin təhlükəsizlik qüvvələri tərəfindən PKK terror təşkilatına qarşı İraqın və Suriyanın şimalında növbəti dəfə sarsıdıcı zərbə vurulub.

Anadolu Agentliyi xəbər verir ki, zərərsizləşdirilən terrorçulardan biri "Roza" ləqəbli Tarıncı, digəri isə "Dilxvaz Agir" ləqəbli Osman Mutludur.

Bildirilir ki, hər iki terrorçu Türkiyə Milli Təhlükəsizlik Təşkilatı (MİT) tərəfindən həyata keçirilən xüsusi əməliyyat nəticəsində məhv edilib. Antiterror əməliyyatları keçirilən onların yanlarında başqa terrorçular da olub.

Qeyd edək ki, terrorçu "Dilxvaz Agir" partlayıcı yüklənmiş avtomobildə məhv edilib.

### ABŞ Yunanıstanın şərqində MQ-9 zərbə-kəşfiyyat dronları yerləşdirib



ABŞ Yunanıstanın şərqindəki "Larissa" aviabazasında MQ-9 zərbə-kəşfiyyat dronlarını yerləşdirib.

"Defense news" nəşri xəbər verir ki, strateji nöqtədə yerləşən "Larissa" bazasında yerləşdirilən MQ-9 pilotsuz uçuş aparatları (PUA) NATO-nun şərq və cənub cinahlarına dəstək məqsədi daşıyır. ABŞ Hərbi Hava Qüvvələrinin Avropa və Afrikadakı qərargahının nümayəndəsinin sözlərinə görə, bu, çəkindirici təsir göstərə və Rusiya ilə münaqişənin qarşısını ala bilər.

PUA-ların Yunanıstanda yerləşdirilməsi 1990-cı ildə Vaşinqton və Afina arasında qarşılıqlı müdafiə sahəsində əməkdaşlığa dair imzalanan sazişə edilən düzəlişlər nəticəsində mümkün olub. 2021-ci ildə yenilənən sənəd ABŞ-a Yunanıstandakı "Larissa" və "Stefanovikeyo" bazalarından dəniz patrulu, kəşfiyyat fəaliyyəti, hava daşımaları və yanacaq təchizatı da daxil olmaqla müxtəlif məqsədlər üçün istifadə etmək imkanı verir.

### İtaliyada qırıcı təyyarə qəzaya uğrayıb



İtaliyanın Hərbi Hava Qüvvələrinə məxsus "Eurofighter Typhoon" tipli döyüş təyyarəsi Siciliya adasının qərbində dənizə düşüb.

Təlim uçuşu həyata keçirdikdən sonra Siciliya adasındakı "Trapani Birgi" hava limanındakı bazaya qayıtmaqda olan təyyarə ilə əlaqə kəsilib. Qırıcı təyyarənin aviabazanın 8 mil cənub-şərqində dənizə düşdüyü bildirilib. Helikopterlər vasitəsilə ərazidə pilotun axtarış-xilasetmə işləri aparılır.

### ABŞ Ukraynaya ən son model raketdən müdafiə sistemləri verəcək



ABŞ bu həftə Ukraynaya ən son model "Patriot" raketdən müdafiə sistemləri verilməsi ilə bağlı qərar qəbul edəcək. "Patriot" ABŞ-ın ən mükəmməl hava hücumundan müdafiə sistemlərindən biridir. "Raytheon Technology"nin bu məhsulu raketləri tutmaq üçün dünyada ən mükəmməl vasitələrdən hesab edilir.

"Reuters" agentliyi bildirir ki, Tramp administrasiyası dövründə Ağ Evdə Ukrayna üzrə kurator olmuş Aleksandr Vindman bu addımın Rusiya-Ukrayna müharibəsində xeyli dəyişikliyə səbəb olacağını deyib: "Patriot" ukraynalıların üzləşdiyi bir çox müxtəlif çətinliklərin öhdəsindən gəlmək üçün kifayət qədər uğurlu olacaq, xüsusən də rusların İrandan qısamənzilli ballistik raket alması fonunda".

Pentaqon bildirir ki, son günlər Rusiyanın Ukraynaya raket zərbələrinin xeyli artması Kiyevin hava hücumundan müdafiə sistemlərini tükəndirmək məqsədi daşıyır. Bu səbəbdən ABŞ və müttəfiqləri Kiyev üçün daha çox hava hücumundan müdafiə sistemi təchiz edir, Ukrayna ordusunu sovet dövründən qalma texnikalardan tutmuş daha müasir Qərb sistemlərinə qədər hər vasitə ilə təmin edir.

**AZƏRTAC-ın materialları əsasında**

# "N" hərbi hissəsində narkotik vasitələrin sağlamlığa zərərli təsirindən danışılıb

"Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı"na müvafiq olaraq, Müdafiə Nazirliyinin və Dövlət Komissiyasının daimi fəaliyyət göstərən işçi qrupunun birgə təşkilatçılığı ilə aidiyyəti qurumları cəlb etməklə "N" hərbi hissəsində maarifləndirmə tədbiri keçirilib.



Dövlət Komissiyasının daimi fəaliyyət göstərən işçi qrupundan AZƏRTAC-a bildiriblər ki, tədbirlərdə komissiyanın işçi qrupu rəhbərinin müavini, Daxili İşlər Nazirliyinin Baş Narkotiklərlə Mübarizə İdarəsinin əməkdaşı və Səhiyyə Nazirliyi Respublika Narkoloji Mərkəzinin həkim-narkoloqu mövzu ətrafında çıxışlar edərək narkotik vasitələrin xüsusiyyətləri, onların sağlamlığa zərərli təsiri və narkotik asılılığın formalaşma mərhələləri, o cümlədən profilaktik tədbirlərə dair fəaliyyət planı və narkotik vasitələrin qəbuluna şübhə yarandığı halda ekspress-diaqnostikanın aparılması barədə zəruri məlumatlar verilib.

Sonda Dövlət Komissiyasının daimi fəaliyyət göstərən işçi qrupu tərəfindən hazırlanmış "Narkotik vasitələrdən və psixotrop maddələrdən sui-istifadə edən şəxslərin müəyyənləşdirilməsinə kömək üçün metodik tövsiyələr" adlı kitabça və digər zəruri təbliğat materialları iştirakçılara təqdim edilib.

# Müdafiə Nazirliyi tibbi təhsili olan şəxslərin həqiqi hərbi xidmətə və işə qəbulunu elan edir

Müdafiə Nazirliyi işğaldan azad olunmuş ərazilərdə dislokasiya olunan hərbi hissələrin tibb məntəqələrində, eləcə də həmin ərazilərdəki hospitallarda müxtəlif tibbi ixtisaslar üzrə vakant hərbi və mülki vəzifələrə həqiqi hərbi xidmətə və işə qəbul elan edir.

Ali və orta ixtisas tibbi təhsilli, fiziki cəhətdən sağlam 35 yaşadək kişilər (**müddətli həqiqi hərbi xidmətini başa vuranlar**) və qadınlar, həmçinin Azərbaycan Respublikası Silahlı Qüvvələrinin tərkibində hərbi həkim və ya feldşer vəzifələrində xidmət keçmiş və ehtiyata buraxılmış 40 yaşadək zabit və gizirlər hərbi xidmətə və işə qəbul olunmaq üçün müraciət edə bilərlər.

Namizədlər Müdafiə Nazirliyinin Tibb İdarəsinə (Bakı şəhəri, Nəsimi rayonu, Ceyhun Səlimov küçəsi 3) və Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzinə müraciət edə bilərlər. Müraciət edənlərin nəzərinə çatdırırıq ki, vakant mülki və hərbi vəzifələrə qəbul tələb olunan tibbi ixtisaslar üzrə həyata keçiriləcək.

**Qeyd**: Vətəndaşlar bazar və bayram günləri istisna olmaqla hər gün saat 09:00-dan 17:00-a kimi müraciət edə bilərlər.

Məhkumluğu olan və xidməti uyğunsuzluğa görə hərbi xidmətdən ehtiyata buraxılan şəxslərin müraciət etməmələri xahiş olunur.

**Əlavə məlumat üçün:**
**Ünvan:** Bakı şəhəri, Nəsimi rayonu, Ceyhun Səlimov küçəsi 3.
**Əlaqə nömrəsi**: (012) 530-20-47
**Elektron poçt ünvanı**: tbi-dost@mod.gov.az

*Əsgər dostluğu*

# Ordu sıralarında başlanan dostluq

*Dostluğun, yoldaşlığın əhəmiyyətini Vətən müharibəsində bir daha anladıq. Bu müharibədə neçə-neçə hərbçi bir-birinə dost, qardaş oldu. "Yaralı əsgər dostunu çiynində döyüş meydanından çıxarıb ilkin tibbi yardım göstərən, ağrılarını yüngülləşdirmək üçün zarafatlar edib fikrini yayındırmağa çalışan zabit və əsgərlərimiz barəsində çox eşitdik, çox oxuduq. Atalar yaxşı deyib: "Dost dar gündə tanınar".*

"N" hərbi hissəsində dostluqdan söhbət düşəndə əsgər İsmayıl Abbasov və Rəşid Məmmədzadənin dostluğundan danışdılar. Öyrəndik ki, onların dostluğu döyüş meydanında bir-birilərinə canlarını əmanət edəcək qədər etibarlı, başqalarının həsəd aparacağı qədər səmimidir.



Bu mehriban dostları daha yaxından tanımaq üçün görüşüb söhbət etdik. Əsgər İsmayıl Abbasov 2000-ci ildə Bakı şəhərində anadan olub. Orta təhsilini bitirdikdən sonra ali məktəbə qəbul olub. Qısa tanışlıqdan sonra əsgər dedi ki, Vətən müharibəsi başlayanda tələbəydim. "Qrup yoldaşlarımla birgə döyüşə getmək istəyirdik. Neçə-neçə qəhrəman oğullarımızın cəbhəyə könüllü yazılması xəbərlərini eşitdikcə daha da həvəslənirdik. Atam Dönməz Abbasovun Birinci Qarabağ müharibəsi veteranı olması məni döyüşlərə getməyə daha da ruhlandırırdı. Müharibədə iştirak edə bilməyimdən çox təəssüflənirdim. Amma indi qalib ordunun sıralarında xidmət etməyimdən qürur duyuram. Əsgər dostum Rəşid Məmmədzadə ilə də burada tanış oldum. Söhbətlərinin birində atası Zaman Məmmədovun Birinci Qarabağ müharibəsi əlili olduğunu dedi. Müharibəylə, Vətənlə bağlı söhbətlərimiz bizi bir-birimizə daha da yaxınlaşdırdı. İndi Rəşidlə bir yerdə xidmət edirik, qarşımızda dayanan tapşırıqların öhdəsindən layiqincə gəlirik. Xidmətdə olduğumuz vaxt onu anladıq ki, hərbi xidmətdə yaranan dostluq daha möhkəm və əbədidir. Asudə vaxtlarımızda Rəşidlə birlikdə idmanla məşğul olur, kitab və jurnallar mütaliə edirik".

Əsgər Rəşid Məmmədzadə söhbətimizə qoşularaq dedi: "İndi əsas məqsədimiz hərbi xidmətimizi layiqincə başa vurub başıuca, alnıaçıq ailəmizin yanına qayıtmaqdır. İsmayılla hərbi xidmətdə bünövrəsi qoyulan dostluğumuzun isə ömrü uzun olacaq. Çünki dərs və məşğələlərdə, döyüş atışlı təlimlərdə çiyin-çiyinəyik. Öyrəndiklərimizi daha da dərindən mənimsəməyə çalışırıq. Fərdi inkişafımız üçün lazım olan bacarıqları inkişaf etdiririk".

Dost əsgərlərlə tanışlığımız başa çatandan sonra onlar yenə də başladıqları söhbətlərini davam etdirdilər. Əsgərlərdən eşitdiklərimizdən bir daha əmin olduq ki, bu igidlər xidmətlərində daha da böyük uğurlar qazanacaqlar.

**Hüsniyyə İDRİSOVA**
**"Azərbaycan Ordusu"**

# İdman

## Stolüstü tennisçilərimiz Moskvada qızıl medal qazanıblar



Rusiya Federasiyasının Moskva şəhərində stolüstü tennis üzrə məktəblilər arasında beynəlxalq turnir keçirilib.

Yarışda ölkəmizi təmsil edən idmançılarımız Tunar Bağırov və Nigar İsmayılzadə qarışıq qoşa yarışlarda, Tunar Bağırov şəxsi yarışlarda birinci yeri tutublar. Ümumi nəticəyə görə komandamız ikinci yerə sahib olub.

## Azərbaycan xizəkçisi İtaliyada birinci olub



Azərbaycanı dağ xizəyi üzrə yarışlarda təmsil edən İlya Kostov İtaliyanın Santa Caterina Valfurva xizək mərkəzində keçirilən beynəlxalq turnirdə birinci yeri tutub.

İdmançımız "downhill" növü üzrə yarışlarda bütün rəqiblərini qabaqlayaraq fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

## Şahmatçılarımızdan İspaniya festivalında növbəti qələbə



İspaniyanın Sitges şəhərində şahmat festivalı davam edir.

Yarışda iştirak edən Azərbaycan təmsilçiləri Vasif Durarbəyli və Ülviyyə Fətəliyeva ikinci turda da qələbə qazanaraq maksimum xalla (2 xal) irəliləyirlər. Komandamızın digər üzvü Eltac Səfərli isə ikinci turda heç-heçə edib. Şahmatçımızın aktivində 1,5 xal var.

İsveçrə sistemi üzrə keçiriləcək və 10 turdan ibarət olacaq. Yarışda, ümumilikdə 150 oyunçu iştirak edir.

## Xorvatiya-Mərakeş matçının hakimləri bəlli olub



Qətərdə təşkil olunan futbol üzrə dünya çempionatında Xorvatiya və Mərakeş yığmaları arasında oynanılacaq üçüncü yer uğrunda görüşün hakimləri müəyyənləşib.

Matçın baş hakimi qətərli Əbdülrəhman Əl-Cassim olacaq. Ona həmyerliləri Taleb Əl-Mari və Səud Əl-Maqali kömək edəcəklər. Dördüncü hakim funksiyasını braziliyalı Rafael Klaus yerinə yetirəcək.

Qeyd edək ki, dekabrın 17-də keçiriləcək Xorvatiya-Mərakeş matçı Bakı vaxtı ilə saat 19:00-da başlayacaq.

## Messi məhsuldar ötürmələrin sayında rekorda imza atıb



Argentinalı hücumçu Lionel Messi dünya çempionatlarının pley-off mərhələsində məhsuldar ötürmələrin sayında rekorda imza atıb.

Forvard Qətərdə keçirilən dünya çempionatında Xorvatiya millisi ilə yarımfinal oyununda sonuncu qolun (3:0) vurulmasında iştirak edib. Belə ki, Xulian Alvares Messinin ötürməsini qolla tamamlayıb. Bu, hücumçunun dünya çempionatlarının pley-off mərhələsində 6-cı məhsuldar ötürməsi olub.

Messi rekordunu dörddəbir final mərhələsində Niderland ilə oyunda müəyyənləşdirsə də, yarımfinal matçında onu yaxşılaşdırıb.

Əvvəllər rekord Peleyə məxsus olub - 4 məhsuldar ötürmə.

**AZƏRTAC-ın materialları əsasında**

Gizir Cəbiyev Rövşən Səməd oğluna məxsus SQ № 0011627 nömrəli şəxsi vəsiqə itdiyi üçün etibarsız sayılır.


**Baş redaktorun müavini** kapitan Məhəmməd NƏSİRLİ

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant Mahmud MÖHBALIYEV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır. Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 1260
Nüsxə 4740